



**Milli teatr və kino sənətimizin ənənələrini layiqincə davam etdirən, fitri istedadı ilə Azərbaycan mədəniyyətini və incəsənətini zənginləşdirən Həsənağa Turabov 1938-ci ildə Bakıda anadan olmuşdur. 1960-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsini bitirmiş, elə həmin il, hələ tələbəlik vaxtlarında sıx əlaqə saxladığı, hətta ikinci və üçüncü dərəcəli rollara təklif aldığı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında əmək fəaliyyətinə başlamışdır. Sənətdə öz dəst-xəttini yaratmaq qabiliyyəti, peşəsinə bağlılığı sayəsində qısa müddət ərzində Azərbaycan və dünya dramaturqlarının əsərlərində baş rolların qəhrəmanına çevrilmişdir. Teatr səhnəsində Vahid ("Kəndçi qızı"), Azər ("Yaxşı adam"), Hamlet ("Hamlet"), Lionel ("Orman qızı"), İsgəndər ("Ölülər"), Xəyyam ("Xəyyam") rolları ona böyük tamaşaçı rəğbəti qazandırmışdır. Ağasadıq Gəraybəyli, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Mehdi Məmmədov, Adil İsgəndərov kimi sənət korifeyləri ilə tərəf müqabili olan aktyor yaratdığı maraqlı və yaddaqalan obrazlarla yüksək sənətkarlıq bacarığını sübut etmişdir. 1987-2001-ci illərdə, təxminən 15 ilə yaxın Akademik Milli Dram Teatrının direktoru və bədii rəhbəri vəzifələrində çalışan Həsənağa Turabov teatrın səhnəsində dünya dramaturgiyasına və klassik milli irsimizə müraciət etməklə neçə-neçə əsərin səhnələşdirilməsinə geniş imkanlar yaratmışdır.**

# Tanınmış sənət ustası, realist aktyor məktəbinin görkəmli nümayəndəsi

Çoxsaylı bədii filmlərdə, o cümlədən televiziya tamaşalarında yüksək aktyorluq məharəti ilə unudulmaz obrazlar yaradan Həsənağa Turabov "Yeddi oğul istərəm" filmindəki Gəray bəyin bütün çalarlarını böyük ustalıqla, dəqiqliklə yaradaraq adını Azərbaycan kino sənəti tarixinə əbədi olaraq yazmışdır. Aktyorun qızı Sevinc Turabova "Yeddi oğul istərəm" filmində atasının Gəray bəy rolunda öz obrazını yaratdığını deyir: "Atam Gəray bəy obrazı ilə öz həyatını yaşayıb. Elə bil Gəray bəy özüdür ki, var. Xasiyyəti eyni idi. Mərd, qürurlu idi. Heç kimə baş əyməzdi, sözündən heç vaxt dönməzdi. Baxmayaraq ki, mənfi obraz idi Gəray bəy, kişilik rəmzi kimi tanındı. Hər yerdə onu Gəray bəy deyə çağırırdılar. Hətta vəziyyət o yerə çatmışdı ki, məni də Gəray bəyin qızı Humay adlandırırdılar. Yadımdadır, 6-7 yaşım olanda nənəmgilə getmişdim. Pəncərədə dayanıb həyətdə oynayan uşaqlara baxırdım. Məni görən uşaqlar başladılar qışqırmağa: "Komsomolu güllələyib öldürən Gəray bəyin qızı Humaydı". Bu, məni o qədər qəzəbləndirdi ki...".

Tamaşaçıya müsbət qəhrəmanını sevdirə bildiyi kimi, mənfi personajlara da nifrət hissi oyada bilən aktyorun "Babək", "Axırıncı aşırım", "Carvadarların izi ilə", "Ürək...Ürək", "Sevinc buxtası", "Dantenin yubileyi", "Qəm pəncərəsi", "Bəyin oğurlanması" və s. filmlərdə oynadığı rollar öz ifa tərzi ilə seçilməklə yanaşı, həm də həyatiliyi ilə sənətsevərlər tərəfindən yüksək qiymətləndirilmiş və qəbul olunmuşdur.

Rejissor kimi də sənətdə öz sözünü deyən Həsənağa Turabov "Qanlı zəmi", "Ailə", "Nə gözəldir bu dünya" kimi filmlərə həyat bəxş etmiş, tamaşaçı məhəbbəti qazandırmışdır. Tanınmış kinorejissor Tofiq Kazımov Həsənağa Turabovun realist aktyor məharətini yüksək dəyərləndirir, demək olar ki, bütün repertuarını onun üzərində qururdu. Oynadığı rolların hər birində təbiilikdən, reallıqdan kənara çıxmaması zaman keçdikcə Həsənağa Turabovu realist aktyor məktəbinin yaradıcısına çevirmişdi. Bütün ruhu ilə sənətinə bağlı olan aktyor istər televiziya tamaşalarında, istərsə də kinofilmlərdə bir-birindən maraqlı, baxımlı rollar yaradaraq özünü tamaşaçının diqqət mərkəzində saxlayırdı.

Gecə-gündüz məşqlərdə, çəkilişlərdə, radio-televiziya verilişlərində işləməkdən yorulmayan, böyük ustalıqla yaratdığı mürəkkəb xarakterli obrazları ilə Azərbaycan teatr və kino sənətinin inkişafına öz töhfəsinin verən Həsənağa Turabov həm də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, zəngin təcrübəsi, yüksək aktyorluq məharəti, istedadı, qabiliyyəti ilə neçə-neçə aktyorun yetişməsində əvəzsiz rol oynamış, sənətdə ilk addımlarını atan gənc aktyorlara sənətin incəliklərinə yiyələnmək və Azərbaycan teatrının ənənələrini davam etdirməkdə əlindən gələni əsirgəməmişdir.

Tanınmış sənət ustası, fitri istedadı ilə milli teatr və kino sənətimizə yeniliklər gətirən, özünəməxsus üslub, dəst-xətlə yaratdığı obrazlarla xalqın bədii təfəkkürünün formalaşmasında əvəzsiz xidmətləri olan Xalq artisti Həsənağa Turabov Azərbaycan mədəniyyət salnaməsinə parlaq səhifələr yazmışdır.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına rəhbərlik etdiyi dönəmlərdə teatrın inkişafına, repertuarının zənginləşməsinə, məhsuldar fəaliyyətinə böyük səy göstərmiş, bir rəhbər olaraq kollektivin dərin hörmətini qazanmışdır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**